# Həssas qrupa aid edilən insanlara hər kəs qayğı göstərməlidir

***Prezident İlham Əliyevin tapşırığına əsasən, Vətən müharibəsi şəhidlərinin ailələri, müharibə iştirakçıları ilə bağlı görülən sosial dəstək tədbirləri qarşıdakı dövrdə daha da genişlənəcək. Ölkə Prezidentinin uğurlu sosial islahatlar proqramının icrası, həssas qruplarla bağlı dəstək mexanizmlərinin gücləndirilməsi istiqamətində səylər daim artırılır. Qeyd edək ki, ötən il şəhid ailələri və müharibə əlillərinə 3 il əvvələ nisbətən 5 dəfə çox olmaqla 3 min mənzil və fərdi ev verilib. Bu il üçün onlara daha 1500 mənzil və fərdi evin verilməsi nəzərdə tutulub. Cari ilin birinci yarısında artıq 600-ü təqdim olunub. 44 günlük Vətən müharibəsindən sonra 3 min 600, ümumiyyətlə, ötən dövrdə 12 min 500-dən çox mənzil və fərdi ev bu kateqoriyalardan olanlara verilib.***







Onu da deyək ki, yaxın iki ayda həmin zümrədən olan soydaşlarımıza daha 500 mənzil və fərdi ev veriləcək. Ümumilikdə, dövlət başçısının tapşırığına uyğun olaraq ƏƏSMN növbədə olan bütün şəhid ailələri və müharibə əlillərini yaxın gələcəkdə mənzil və fərdi evlərlə təmin edəcək. Yeri gəlmişkən, ötən həftə Beyləqan rayonunda Vətən müharibəsi şəhidlərinin ailələrinə mənzillər təqdim olunub. Tədbirdə Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Hidayət Abdullayev bildirib ki, Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun Zəfər qazandığı Vətən müharibəsindən sonra dövlət başçısının göstərişi ilə nazirlik tərəfindən şəhid ailələri, müharibə iştirakçıları ilə bağlı sosial dəstək paketi icra olunur. Bu sosial dəstək paketi 100 mindən artıq şəhid ailəsi üzvü və müharibə iştirakçısını əhatə edib, onlara 193 min sosial dəstək xidməti göstərilib. Nazir müavini mühüm sosial dəstək tədbirlərindən birinin də şəhid ailələrinin, müharibə əlillərinin mənzil və fərdi evlə təminatı proqramı olduğunu vurğulayıb. Qeyd edib ki, bu proqram ötən il 5 dəfə genişləndirilib. 2021-ci ildə şəhid ailələri və müharibə əlillərinə 3 min, 2022-ci ilin əvvəlindən bəri 600-dən çox mənzil verilib.

Postmüharibə dövründə 3 min 600-dən, ümumilikdə, ötən dövrdə 12 min 500-dən çox şəhid ailəsi və müharibə əlili mənzil və ya fərdi evlə təmin edilib. Bu ilin avqust – sentyabr aylarında daha 500 mənzil və fərdi ev bu kateqoriyalardan olan vətəndaşlara veriləcək. Tədbirdə şəhid ailələri və müharibə əlillərinə göstərilən dövlət qayğısından bəhs edilib. Bildirilib ki, təqdim olunan yeni mənzillərdə ailələrin rahat yaşaması üçün hər cür şərait yaradılıb.

Əhalinin sosial müdafiəsinin yaxşılaşdırılmasından danışarkən onu da deməliyik ki, son 6 ayda Vətən müharibəsi veteranlarına Prezidentin aylıq təqaüdlərinin proaktiv qaydada təyinatı proqramı da uğurla icra edilərək ödənişləri tam həyata keçirilib. Qırx min ailəni və ya 173 min nəfəri əhatə edən ünvanlı sosial yardımın bir ailəyə düşən orta aylıq məbləği də 35 faiz artaraq 347 manata çatıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən aldığımız xəbərə görə, Sosial Xidmətlər Agentliyinin təşkilatçılığı ilə Vətən müharibəsi şəhidlərinin övladları üçün "Əmanət" yay düşərgəsi bu dəfə Masallı rayonunda təşkil olunub. Düşərgədə Masallı rayonundan 20 şəhidin övladları iştirak edib. İştirakçılar əvvəlcə Vətən uğrunda mübarizədə canlarından keçən Vətən övladlarının xatirəsinə Masallı şəhərində inşa edilən Qəhrəmanlar parkını ziyarət ediblər. Daha sonra Şuşa əməliyyatının maraqlı detallarını özündə əks etdirən, bu əməliyyatı həyata keçirən cəsur əsgər və zabitlərimizin müsahibələrinin, əməliyyat zamanı çəkilmiş ekskluziv kadrların yer aldığı "Şuşa, sən azadsan!" sənədli filmi təqdim olunub. Düşərgə müxtəlif personajların təqdimatında bədii-əyləncəli proqramla, yeni tanışlıqlar və rəngarəng görüntülərlə davam edib. Ötən aydan etibarən start verilən "Əmanət" adlı yay düşərgəsinə Lənkəran, Cəlilabad və Masallıdan, ümumilikdə, 70-ə yaxın şəhid övladı cəlb edilib. Belə düşərgələrin növbəti mərhələdə digər bölgələrdə də təşkil olunması nəzərdə tutulub.

Dövlət başçısının tapşırıqları əsasında son illər aparılan köklü sosial islahatlar sosial ödənişlərin, o cümlədən Prezidentin aylıq təqaüdü ilə təmin olunanların da əhatə dairəsini xeyli genişləndirib. Qeyd edək ki, son 4 ildə sosial ödənişlərin ciddi şəkildə artırılması ilə yanaşı, yeni təqaüd növləri də yaradılıb: müharibə veteranları, birinci dərəcə əlilliyi olan şəxslərə və əlilliyi olan 18 yaşadək şəxslərə qulluq edənlər, digər kateqoriyalar üçün aylıq təqaüdlər təsis olunub. Eyni zamanda, 44 günlük Vətən müharibəsindən sonra sosial dəstək tədbirləri çərçivəsində həmin müharibənin şəhidlərinin ailə üzvləri, Vətən müharibəsinin veteranları, o cümlədən, Vətən müharibəsi əlillərindən ibarət 94 min şəxsə 104 min sosial ödəniş təyin olunub. Həmin ödənişlərin mühüm hissəsini Prezidentin aylıq təqaüdləri təşkil edib.

Xatırladaq ki, Prezident İlham Əliyev Araz Əhmədovu Masallı Rayon İcra Hakimiyyətinin, Əkbər Abbasovu Lerik Rayon İcra Hakimiyyətinin və Elvin Paşayevi Göygöl Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar qəbul edərkən deyib: "Şəhid ailələrinə xüsusi diqqət göstərilməlidir. Dövlət tərəfindən bu diqqət daim göstərilir. İkinci Qarabağ müharibəsindən əvvəl və sonra şəhid ailələri daim diqqət mərkəzindədir".

Dövlət başçımız görüşdə şəhid ailələrini, müharibə əlillərini işlə təmin etmək üçün çoxsaylı tədbirlər həyata keçirildiyini bildirib və deyib ki, əsas odur ki, yerlərdə də bu kateqoriyadan olan insanlara diqqət göstərilsin. Rayon icra orqanlarının nümayəndələri onlara biganə qalmasınlar, əksinə, daim onların yaşayışı, məşğulluğu ilə maraqlansınlar: "Ona görə hər bir dövlət məmurunun, nəinki dövlət məmurunun, hər bir insanın borcudur ki, onlara arxa, dayaq olsun. Yenə də deyirəm, dövlət və mən Prezident kimi daim onların problemləri ilə maraqlanıram, bu problemləri həll edirəm, daim onlarla bir yerdəyəm. Hər bir dövlət məmuru da, bax, eyni hərəkətlər etməlidir".

Dövlət başçımız nəinki 44 günlük Vətən müharibəsində şəhid olanların ailə üzvlərinin və yaralanan qazilərin, həm də Birinci Qarabağ müharibəsində də şəhid olanların ailə üzvlərinin və qazilərin problemlərini diqqətdə saxlayır və hər bir məmurdan tələb edir ki, həssas qrupa aid edilən insanlara xüsusi qayğı göstərsinlər.

Bugünlərdə Amerika Birləşmiş Ştatlarının Dövlət katibi Entoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə telefon danışığında ABŞ-ın Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılmasını dəstəklədiyini qeyd edib. Entoni Blinken, həmçinin ABŞ-ın Ermənistan ilə Azərbaycan arasında nəqliyyat bağlantılarının və kommunikasiyaların açılmasına və bu sahədə texniki dəstəyin göstərilməsinə hazır olduğunu ifadə edib.

Söhbət zamanı dövlətimizin başçısı humanitar məsələlərə toxunaraq, 30 il öncəki Birinci Qarabağ müharibəsində 3 min 890 nəfərdən artıq azərbaycanlının itkin düşmüş şəxs hesab olunduğunu bildirib və Ermənistan tərəfinə dəfələrlə müraciət edilməsinə baxmayaraq, kütləvi məzarlıqların yerləri barədə məlumat verilməməsinə diqqət çəkib. Ötən müddətdə onlardan hər hansı bir sorağın olmaması cənab Prezidentin daim maraqlandığı problemlərdəndir. Ölkə rəhbəri, həmçinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərində Ermənistan tərəfindən kütləvi şəkildə minaların basdırıldığını və müharibənin başa çatmasından bəri 240 nəfərdən artıq vətəndaşımızın mina partlayışlarında həlak olduğunu və ya sağlamlığını itirdiyini bildirib.

***Zərifə BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***